Ədalət .- 2022.- 14 may.- S.8.

# O, günəş ömrüdür, sönməyəcəkdir

## Şair İbrahim Yusifoğlunun poema yaradıcılığında ulu öndər Heydər Əliyev obrazı

**Naxçıvan ədəbi mühitində öz poemaları ilə tanınan qocaman şairlərimizdən biri İbrahim Yusifoğludur. "O, günəş ömrüdür, sönməyəcəkdir", "Mənim inamımı güllələdilər", "Analı, anasız dünyam", "Sulara danışdım yuxularımı", "Armud ağacıyla yarımçıq dərdləşmələrim", "İydəli dərənin uşaqları" kimi poemaların müəllifi olan İbrahim Yusifoğlu bu poemalarda həm Naxçıvanın keçdiyi inkişaf yolu, müasirləşməyi və tərəqqi yolunda parlamağından bəhs açır ("Bu nəğməm sənədi, doğma Naxçıvan"), həm Azərbaycanın məruz qaldığı ən ağır, dəhşətli faciə olan Xocalı soyqırımından ağrı ilə, kədərlə danışır ("Mənim inamımı güllələdilər"), həm də övlad həyatında bir ilahə, Tanrıça qədər ucalan, ülviləşən və müqəddəsləşən Anadan ("Analı, anasız dünyam") bəhs edir. "Armud ağacıyla yarımçıq dərdləşmələrim", "İydəli dərənin uşaqları" kimi poemaları isə avtobioqrafik, xatirə-memuar olması ilə seçilir, özünə oxunaqlılıq qazanır.**

Bu tanınmış şairin "O, günəş ömrüdür, sönməyəcəkdir" poeması məzmun etibarilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə həsr edilibdir. Bir neçə hissədən ibarət olan poemada Heydər Əliyevin şəxsiyyət etibarilə öz ölkəsinə göstərdiyi misilsiz xidmətlər, gətirdiyi əvəzsiz nailiyyətlər və onun Azərbaycanın dövlətçilik tarixində oynadığı rol diqqət mərkəzinə gətirilir. Poemanın "Ön söz" adlanan hissəsində şair bəhs açdığı şəxsiyyət haqqında oxucusuna məlumat verməyə, onun haqqında anlatmaya çalışır. Qeyri-adi şəxsiyyət, nadir insan haqqındakı məlumata uyğun olaraq bu hissədəki üslub, bədii vasitə də məhz o cür tərtib edilib. Mücərrəd bir məlumat tipi olan üslubdan istifadə edən şair "bir insan" kimi ifadəsi ilə bu mücərrəd şəxsiyyəti qeyri-adi əlamət və keyfiyyətlərindən bəhs etməklə təqdim etməyə başlayır. Şair bu nadir, görkəmli şəxsiyətin əlamətlərindənn bəhs etdikcə oxucu bu nadir şəxsiyyətin məhz müdrik lider Heydər Əliyev olduğunu qətiyyətlə sezir. Burada deyilir:

*Bir insan ömründən söz açıram mən,*
*Ö, günəş ömrüdür, sönməyəcəkdir.*
*Səadət verdiyi milyonlar qəlbən*
*Onun haqq yolundan dönməyəcəkdir.*

*...Bir insan ömründən söz açıram mən,*
*Ö, Heydər ömrüdür, sönməyəcəkdir.*
*Canıtək sevdiyi milyonlar qəlbən,*
*Onun haqq yolundan dönməyəcəkdir.*

Əsəri sənədli poema da adlandırmaq olar. Müəyyən məqamlarda tarixi-xronoloji məsələlərlə bağlı müdaxilə edərək izahat verən və müəyyən sənərlər təqdim edən müəllif tarixi gedişatla ədəbi məzmunu əlaqələndirir. Şair



Azərbaycana rəhbərlik etmiş Mircəfər Bağırov kimi rəhbərlərin cəlladlığı və xalqına vurduğu ağır zərbələri də dilə gətirir. Bununla müqayisədə ulu öndər Heydər Əliyevin hələ DTK-də işləyərkən xalqı üçün göstərdiyi misilsiz rəşadətlər oxuculara bəhs edilir. Onun Azərbaycanda rəhbərliyə gətirilməsi xalq üçün böyük bir tale payı olaraq qiymətləndirirlir. Bu baxımdan dahi liderin 1969-cu ildə siyasi hakimiyyətə gətirilməsini ayrıca təqdim edir və böyük pafosla bəhs edir:

***1969-cu il...***
***Bir gün idi, günəşli gün,***
***Üzlər gülər, gözlər süzgün.***
***Qəlblər gəzdi xoş səda-ün,***
***Bərq də vurdu ləl-zərimiz,***
***Heydər gəldi rəhbərimiz.***

Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra ölkədə başlanan inkişaf, dirçəliş, xalqın ona olan rəğbəti minnətdarlıqla qeyd edilir. Düşmənin Heydər Əliyevin rəhbərliyə gəlməsindən sarsılmaı, gizli niyyətlərinin gerçəkləşməməsi müəllif tərəfindən birbəbir oxuucuya təqdim olunur. Poemada qanlı 20 Yanvar hadisələrinin törədilməsi, Heydər Əliyevin Azərbaycan xalqının böyük oğlu kimi bu dəhşətli hadisələri törədənlərə qarşı həyata keçirdiyi misilsiz işlər və s. təfərrüatla verilir. Şair bu hadisələrin dəhşətini, kədərini hiss etdirmək üçün janr dəyişdirərək bayatıdan da istifadə edir və özünün müəllifli bayatılar ilə poemanı həm forma, həm də məzmunca zənginləşdirmiş olur.

Ulu öndər Heydər Əliyevin bu ağır günlərdə vətəninə gəlişi, Bakı şəhərində bu xalqın böyük oğluna qısqanclıqla yanaşılması, rəhbərlik tərəfindən enişinə izn verilməmsi və dahi rəhbərin doğma torpağı Naxçıvana gəlişi böyük məhəbbət və həssaslıqla ərz edilir:

***...Gəldi doğma Bakısına,***
***Yaşamağa yer istədi -***
***verilmədilər!***
***Söyləməyə söz istədi -***
***vermədilər!***
***Bir şəhəri tikən memar***
***evsiz qaldı.***
***Yüz cildlər yazan yazar***
***sözsüz qaldı!***
***Nadanların nadanlığı***
***Yaman ağır gəldi ona.***
***Səmaları yarıb gəldi***
***Ana yurdu Naxçıvana!***
***Onun qəfil gəlişindən***
***Yer üzünə ələndi zər.***
***Peyğəmbərtək qarşılandı***
***Naxçıvanda Ulu Öndər.***

Bu dahi şəxsiyyətin Naxçıvanda həyata keçirdiyi misilsiz dövlətçilik tədbirləri - blokadaya salınmış Naxçıvanın və onun əhaləsinin xilası, qonşu ölkələrlə, xüsusilə Türk dünyasının babası Türkiyə Cümhuriyyəti ilə birbaşa əlaqələrin yaradılması, Naxçıvanın ilk dəfə SSRİ imperiyasının tərkibindən çıxdığını rəsmən elan etməsi, Naxçıvan MSSR adından "Sovet Sosialist" sözlərinin təmizlənməsi, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin iclasında Naxçıvan Muxtar dövlətinin bayrağının dəyişdirilməsi, AXC-nin üçrəngli tarixi bayrağının varislik olaraq ilk dəfə Naxçıvanda dalğalandırılması və başqa tədbirlər Azərbaycanın milli oyanışının nüvəsində dayanmaqla gələcək dövlət müstəqilliyinin əldə edilməsinə bilavasitə vəsilə olması tam təfərrüatla olmasa da, aparıcı, başlıca hadisələrilə poemanın bu hissəsində ümumiləşdirirlir:

***Bu azadlıq savaşında***
***Yol yox idi daha geri.***
***Naxçıvanda məhv olurdu***
***İmperiya - SSRİ***

***və s.***

**Azərbaycanın o vaxtkı vəziyyəti, vətəndaş qarşıdurması, xaosun yaratdığı parçalanma təhlükəsi və s. xatırladılmaqla bütün Azərbaycan xalqının ulu öndər Heydər Əliyevə birmənalı çağırışı, onun Azərbaycana rəhbərliyə təkidlə dəvət olunması səslənişi əsərdə qeyd edilməklə, həm də yeni hadisələrə giriş rolunu oynayır. Poemanın sonrakı hissələrində lirik-epik şəkildə ulu öndərin rəhbərliyi altında Azərbaycanda - Naxçıvanda, Bakıda və bütün bölgələrdə həyata keçirilən misilsiz işlər ümumiləşdirilir. Ulu öndər Heydər Əliyevin bəxş etdiyi qurucu-yaradıcı, inkişafetdirici siyasət və idarəçilik mənalandırılır.**

**Ramiz QASIMOV**
**AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent**